# *PSİXOLOGİYA, YAŞ FİZİOLOGİYASI VƏ İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ*
# *ПСИХОЛОГИЯ, ВОЗРАСТНАЯ ФИЗИОЛОГИЯ И ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ*
# *PSYCHOLOGY, AGE PHYSIOLOGY AND ISSUES OF INCLUSIVE EDUCATION*

**UOT 159.9**

***Qızxanım Nizaməddin qızı Qəhrəmanova***
*psixologiya üzrə elmlər doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri*
*https://orcid.org/0000-0002 - 3512-5431*

## PSİXOLOQUN MƏNƏVİ-PSİXOLOJİ KEYFİYYƏTLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

***Гызханум Низамеддин гызы Гахраманова***
*доктор наук по психологии, профессор*
*заведующий кафедрой*
*Азербайджанского Государственного Педагогического Университета*

## ОСОБЕННОСТИ МОРАЛЬНО-ПСИХОЛОГИЧЕСКИХ КАЧЕСТВ ПСИХОЛОГА

***Gizkhanim Nizamaddin Gahramanova***
*doctor of sciences in psychology, professor*
*head of the department of Azerbaijan State Pedagogical University*

## PSYCHOLOGIST'S FEATURES OF THE MORAL AND PSYCHOLOGICAL QUALITIES

**Xülasə.** Müasir şəraitdə peşə sahələrinə verilən tələblərin dəyişməsi, həmçinin yeni peşələrin ortaya çıxması müəyyən peşə sahibinin psixoloji xüsusiyyətlərinə, əxlaqi-etik keyfiyyətlərinə verilən tələblərin dəyişməsinə gətirib çıxarmışdır. Müxtəlif peşə sahiblərinə verilən tələblərə, prinsiplərə, konkret fəaliyyət sahələrində çalışan mütəxəssislərin peşə fəaliyyətini tənzimləyən normalara, etiketlərə yeni aspektdən baxılması mütəxəssis hazırlığında və peşə seçimində ciddi əhəmiyyətə malikdir.

***Açar sözlər:*** *peşə sahələri, prinsip, etiket, əxlaq komponenti, praktik psixoloq, mütəxəssis, şəxsi xarakteristika*

**Резюме.** Изменения требований к профессиям в современных условиях, а также появление новых профессий привели к изменению требований к психологическим характеристикам, морально-этическим качествам той или иной профессии. Новый взгляд на требования, принципы, нормы и ярлыки, регулирующие профессиональную деятельность специалистов, работающих в конкретных сферах деятельности, применительно к разным профессиям, имеет большое значение в подготовке специалистов и выборе профессии.

***Ключевые слова:*** *профессиональные области, принцип, этикет, нравственный компонент, практический психолог, специалист, личностные характеристики*

**Summary.** Changes in the requirements for professions in modern conditions, as well as the emergence of new professions, have led to changes in the requirements for the psychological characteristics, moral and ethical qualities of a particular profession. A new look at the requirements, principles, norms and labels governing the professional activities of professionals working in specific fields of activity, given to different professions, is of great importance in specialist training and career choice.

***Key words:*** *professional areas, principle, etiquette, moral component, practical psychologist, specialist, personal characteristics*

Müxtəlif peşə sahəsində çalışan insanların fəaliyyətini peşə prinsipləri və kodeksi ilə yanaşı bir sıra psixoloji mexanizmlər tənzimləyir. Çünki insan amilinin mövcud olduğu bütün sahələrdə onun fəaliyyət və davranışı konkret psixoloji qanunauyğunluqlara tabe olur. Mövcud qanunauyğunluqların nəzərə alınmaması istər peşə sahəsində, istərsə də konkret fəaliyyət növündə özünəməxsus çatışmazlıqlar ortaya çıxarır. Başqa bir tərəfdən peşə keyfiyyətləri ilə psixoloji keyfiyyətlərin eyniləşdirilməsi, həmçinin bu sahədə yeniliklərin olmaması peşə seçimində və peşə etikasında konkret mütəxəssisin hansı prinsiplərə üstünlük verməsinə kifayət qədər çətinlik törədir, nəzəri biliklərdən profilaktikaya gedən yolda problem və çətinliklər yaradır.

Peşə etikasının bir elm kimi formalaşmasının kökləri qədimdir. Bu, ilkin əmək bölgüsündən başlayaraq, yeni peşələrin ortaya çıxmasına qədər uzun bir yol keçmişdir. Bu yolun çətinliyi yaranan yeni peşələrə verilən tələblərin işlənib hazırlanmasında və onun konkret perspektivlərinin istiqamətlərinin aydınlaşdırılmasında özünü göstərir. Bu gün hər bir peşənin peşə etikası və psixologiyası vardır. Bu iki cəhətin vəhdətdə nəzərə alınmaması çox zaman yalnız peşə etikasının birtərəfli qaydada inkişafına, ayrıca götürülmüş mütəxəssisin psixoloji keyfiyyətlərinin nəzərə alınmamasına yol açır. Digər tərəfdən isə peşə etiketlərinə verilən tələblər həmin peşəyə verilən psixoloji tələbləri üstələyir və unudulur ki, əsl peşəkarın və ya mütəxəssisin üstünlük dərəcəsi bilik, bacarıq və vərdişlərin formalaşması psixoloji mexanizmlərdən kənarda mümkün deyildir.

Müasir dövrümüzdə praktik psixologiya sahəsində psixoloqun şəxsi keyfiyyətlərinin mahiyyəti və strukturu, onun peşə etikası və peşə əhəmiyyətli keyfiyyətləri aktual mövzulardan birinə çevrilmişdir. Bütünlükdə psixoloqun şəxsiyyəti və onun əxlaq komponenti haqda elmi təsəvvürlər aşağıdakılarla səciyyələnir (1, 79):

1. Səmərəli praktik psixoloqun portretini təşkil edən əsas şəxsiyyət keyfiyyətlərinin başa düşülməsində fikir vəhdətinin olmaması;

2. Şəxsi keyfiyyətlər məcmusunun spesifikasının elmi əsaslandırma olmadan geniş və dar izahının müxtəlif qarşıdurmalarının bolluğu;

3. Psixoloqun peşə qabiliyyətlərinin məzmununun və onun fəaliyyətinin peşəkar səviyyələrinin başa düşülməsində ziddiyyətlər;

4. Vacib peşə keyfiyyətlərinin strukturlaşdırılmasının və onların insanlara psixoloji yardım göstərilməsinin etik aspektləri ilə əlaqəsinin əsaslandırılması;

5. Vacib peşə keyfiyyətlərinin "kortəbii" xarakter daşıyan etik zənginliklə ayrılması, məzmununa görə müxtəliflik, bəzən isə ziddiyyət təşkil etməsi.

Təsadüfi deyil ki, aparıcı peşə mütəxəssislərindən olan V.A. Klimov peşə əhəmiyyətli keyfiyyətlər haqqında danışarkən dəqiqləşdirirdi ki, bütün insanlar öz şəxsi keyfiyyətlərinə görə bir-birlərindən fərqlənirlər (2, s. 94). Onların arasında elə keyfiyyətlər var ki, peşə əhəmiyyətli adlanır. Peşə əhəmiyyətli keyfiyyətlər tamlıq, sistem yaradır. Əsası ondan ibarətdir ki, insan praktik olaraq peşə hazırlığına və müvafiq əmək fəaliyyətinə qoşulana qədər peşə yararlığına tamamilə hazır ola bilməz. Buna əsaslanaraq əsas peşə əhəmiyyətli keyfiyyətlər və onların başlanğıcı yalnız sonradan fəaliyyət prosesində formalaşır və orada təkmilləşir.

Rus tədqiqatçısı V.D. Şadrikov peşə etikası ilə bağlı fərqli konsepsiya təklif etmişdir. Konkret peşə fəaliyyəti üçün xüsusiyyətlər spesifik funksional sistemdə təşkil edilir. İnsan fəaliyyətin bir növünü yerinə yetirənə qədər bu funksional sistem və xüsusiyyətlərinin məcmusu saxlanır, bu funksional sistemə "işləyən" qabiliyyətlər və vacib peşə keyfiyyətləri eynidir, inkişaf etməyə və təkmilləşməyə davam edir.

Funksional sistemin daxilindəki keyfiyyətlər arasında ayrı-ayrı, tək-tək əlaqələr artır, onun əsasında şəxsiyyətin psixi, psixomotor proseslərin, fiziki keyfiyyətlərin və xassələrinin qarşılıqlı təsirinin mürəkkəb sisteminə malik olan konkret peşə üçün bütöv sabit xassələr strukturu formalaşır (3, s. 305). Doğrudur, bu funksional sistemdə peşə etikasının komponenti zəif əks olunur. Lakin peşəkar üçün vacib keyfiyyətlərin sabit sistemi diqqət mərkəzinə gətirilir.

Bundan başqa, peşənin mənimsənilməsi prosesində əsas keyfiyyətlərin əvəz olunması baş verir. Yəni, peşəkara çevrilmənin müxtəlif mərhələlərində müxtəlif keyfiyyətlər maksimum (minimum) inkişaf səviyyəsinə malik olmalıdır. Peşəkarlıq zamanı bu keyfiyyətlərin strukturunun komponentləri dəyişir. Bu və digər keyfiyyətlər qeyri-bərabər inkişafa malik olur. Beləliklə, vacib peşə keyfiyyətləri peşə fəaliyyəti pro-

sesində müəyyən dinamikaya malik olur, dəyişməyə məruz qalır və peşə fəaliyyəti prosesində qanunauyğun şəkildə dəyişir. Peşə fəaliyyətinin yalnız texnoloji funksiya ilə daha az bağlı olan, ümumi mənəvi dəyərlərdən daha çox asılı olan etik əsasları daha çox sübutdur (4, s. 49).

Psixoloqun şəxsiyyətinin elmi tədqiqi ilə paralel olaraq öyrənilən problemlərin mahiyyətini başa düşməyə yalnız mane olan bəzi mütəxəssislərin manipulyasiyalarına kömək edən gündəlik şüur mifləri mövcuddur. Psixologiyada bu miflər aşağıdakı kimi qruplaşdırılır:

Mif 1. Psixoloq – müdrik, abid, həyat haqqında digərlərindən daha çox bilən, həqiqət anlayışına malik olan ustaddır. Buna görə də onun missiyası yolunu azanlara gözlərini açmaq və onlara yeni yol göstərmək, yönləndirmək və göstəriş verməkdir.

Mif 2. Psixoloq – peşəsi astroloq, loğman, ekstrasens peşəsinə yaxın insandır. Bizim maariflənmə dövrümüzdə: ”psixoloq” sözü çox vaxt “hipnoz edən”, “təbib”, ekstrasens” sözləri ilə assosiasiya edilir.

Mif 3. Psixoloq – yalnız xəstə insanlarla işləyən “psixlər” üzrə mütəxəssisdir. Psixi sağlam insanlar inkişafda müəyyən ləngimələrə və ya geriləmələrə malik olan, çətin iş və məişət şəraitində psixoloji yardıma ehtiyacı olan, bu yalan təsəvvürlərə əsaslanaraq praktik psixoloqa müraciət etmirlər və problemlərin digər həlli üsullarına üstünlük verirlər.

Yaddan çıxarmaq olmaz ki, praktik psixoloqun vəzifələrindən biri insanlara daha effektiv yaşamağa, özünü daha tam gerçəkləşdirməyə kömək etməkdir (5, s. 36). Bu miflərin saxlanması yalnız insanların psixoloqlarla münasibətlərində fəallığını məhdudlaşdırır, müxtəlif “təbib” və “ekstrasenslərin” işinə yardım edir. Bu insanlar çox vaxt psixoloji təhsil haqqında diplomlarının arxasında gizlənir və çəkinmədən öz təmənnalı maraqlarında insanların psixoloji səriştəsizliyindən istifadə edir. Belə “mütəxəssislər” kütləvi informasiya vasitərlərindən də istifadə etməyə nail olurlar.

Buna görə də mütəxəssisə, peşəkara ən vacib tələblərdən biri ondan ibarətdir ki, psixoloqun peşəkar səriştəliliyini və mənəvi təmizliyini birləşdirsin. Peşəkar səriştəlilik özündə aşağıda sadalananları təzahür etdirir:

– Psixoloqun ona müraciət edənə təsir effekti insanın şəxsiyyət kimi mənəvi narahatlığının ən gizli sirlərini etibar etdiyi psixoloqun yüksək əxlaqi şəxsiyyətinin qarşılıqlı təsir faktının özündən ibarətdir;

– Yalnız psixoloqun yüksək əxlaqlı şəxsiyyəti müştərinin psixikasının resursunu aktuallaşdırmağa və onu psixoloji çətinliklərin qarşısının alınması üzrə məhsuldar və konstruktiv şəkildə fəaliyyət göstərməyə məcbur etməyə qadirdir;

– Müraciət edənin psixoloji kolliziya situasiyasının yüksək peşəkar qiymətləndirilməsi, bu qiymətləndirmənin arxasında sadəcə situativ psixoloji yardım göstərmək vərdişi deyil, həm də müxtəlif cərəyan və məktəblərin mütəxəssislərinin peşəkar birliyi durur;

– Peşəkar qarşılıqlı fəaliyyətin bəyan edilmiş etik prinsiplərinə və qaydalarına səviyyələrlə zəmanətli riayət edilməsi;

– Daimi mənəvi və peşə özünütəkmilləşdirməsi, peşəkar yanmanın və davranış qüsurlarının qarşısının alınması;

– Sözün, nümunənin və əqidənin gücünü bilmək və məharətlə istifadə etmək.

Bununla əlaqədar bir çox praktik psixologiya məktəblərində müsbət iş təcrübəsi mövcuddur. Belə ki, psixoloqun şəxsiyyətinin istisna əhəmiyyəti psixoloji təhlillə ayrılır. Təsadüfi deyil ki, psixoanalitikə icbari peşə tələbi şəxsi təhlildən keçməlidir (6, s. 101).

Psixoloqun insan və şəxsiyyət kimi ayrılması analitik psixoterapiyada ən yüksək səviyyəyə çatmışdır. Mahiyyət etibarilə psixoterapevt və ona müraciət edən iş prosesində adi peşəkarlığın üzərinə qalxır və mənəvi peşəkarlıq səviyyəsinə çıxır, bu zaman başlıca meyar artıq psixotexniki alətlər toplusuna yiyələnmək deyil, şəxsi mənəviyyatdır. Bu barədə K. Yunq qeyd edir ki, “mənəvi müalicənin nəticəsi üçün həkim mütəxəssis kimi danışmasında və fikirləşməsindən daha çox həkimin şəxsiyyəti (həmçinin xəstənin) daha vacibdir”.

Praktik iş zamanı diqqət qarşılıqlı təsirin aşağıdakı şəxsi xüsusiyyətlərinə və peşə vəziyyətlərinə yönəldilir:

– Müraciət edən üzərində üstünlükdən imtinaya, xüsusilə onun mənəvi – şəxsi səviyyəsi psixoloqdan yüksək olduğu hallarda;

– Mənəvi simanın və psixi simanın balanslaşdırmanın prioriteti (psixoloji tarazlıq);

– Diletantlığa və profanasiyaya yol verməzlik;

– Aparıcı rolun təbiətə verilməsi və ona əməl edilməsi;

– Praktik iş prosesində şəxsi fərdilikdən və şəxsi əqidələrdən imtina;

– Təcrübənin və praktikanın üstünlüyü;

– Yüksək fəlsəfi-dialektik səviyyə.

Bu baxımdan öz işinə hörmətlə yanaşan hər bir mütəxəssis psixoloq peşə etikasının bu prinsiplərinə riayət etməlidir. Ona görə də praktik psixoloqun başlıca peşə gücü, hər şeydən əvvəl, onun şəxsi xarakteristikaları və mənəvi-psixoloji vəziyyəti və əqidələri ilə bağlıdır.

**Problemin aktuallığı** praktik psixoloqun mənəvi-psixoloji keyfiyyətləri və onun şəxsi xüsusiyyətlərinin, peşənin mənimsənilməsi prosesində əsas keyfiyyətlərin müəyyənləşdirməsi ilə bağlıdır.

**Problemin elmi yeniliyi** praktik psixoloqun mənəvi-psixoloji keyfiyyətləri və onun şəxsi xüsusiyyətləri probleminin əsas təzahürlərini müəyyənləşdirmək, müasir psixologiyanın elmi-nəzəri tələbləri səviyyəsində həmin problemlərin təhlilinə xüsusi diqqət yetirməkdən ibarətdir.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbələri, magistrləri, psixoloqlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası. – Bakı: Mütərcim, – 2008, – 296 s.
2. Bayramov Ə.S. Psixologiya. / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. – Bakı, – 2003, – 540 s.
3. Qəhrəmanova, Q.N. Peşə etikası. – Bakı: “OPTİMİST” MMC, – 2019, – 256 s.
4. Əliyev, B.H., Müstafayev, M.H. Mədəniyyət və şəxsiyyət probleminə dair. – Bakı: BDU-90, – 2009, –516 s.
5. Məhərrəmov, M.C. İzahlı psixoloji lüğət. – Bakı: Azərnəşr, –1999, –149 s.
6. Дорощенко, В.Ю. Социальная психология и этика делового общения. / В.Ю Дорощенко, Л.И. Зотова, Н.А. Нартов. – М: ЮНИТИ. – 2000, – 368 с.
7. Дж. Честара. Деловой этикет. М: Агенство. ФАИР., – 1997, – 336 с.


**E-mail:** qehremanova.qizxanim@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **Ş.Q. Əliyeva**
*psix.ü.fəls.dok.* **G.H. Əlixanova**
**Redaksiyaya daxil olub:** 05.04.2022.